# Cəsurların qəhrəmanlığı heç vaxt unudulmur



Şəhidlərin şərəfli döyüş yolu gələcək nəsillər üçün bir örnəkdir. Yurdumuzun azadlığı uğrunda canından keçmiş kapitan Həmid Cəfərli də 44 günlük Vətən müharibəsində böyük igidlik və qəhrəmanlıqlar göstərib. Cəsur zabit yaddaşlarda da elə bu cür - vətənpərvər, qorxmaz bir hərbçi kimi qalıb.

Kapitan Həmid Kərim oğlu Cəfərli 1990-cı il avqustun 1-də Bakı şəhərində dünyaya göz açıb. 1996-cı ildə Xətai rayonundakı 88 nömrəli orta məktəbin 1-ci sinfinə gedib. Səkkizinci sinfi bitirdikdən sonra hərbçi olmaq arzusu ilə 2004-cü ildə C.Naxçıvanski adına Hərbi Liseyə qəbul olub. Təhsil illərində çalışqanlığı ilə seçilib. 2007-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olunub. 2011-ci ildə qoşun kəşfiyyatı ixtisası üzrə hərbi ali təhsilini başa vurub. 2011-2012-ci illərdə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində zabit ixtisasartırma kursunu bitirib. Elə həmin il "N" hərbi hissəsində taqım komandiri kimi xidmətə başlayıb. Sonrakı illər xidməti borcunu müxtəlif hərbi hissə və birləşmələrdə yerinə yetirib. Təcrübə və səriştəsini nəzərə alan komandanlıq 2019-cu ildə onu bölük komandiri təyin edib.

27 sentyabr 2020-ci ildə düşmən təxribatı nəticəsində başlanan Vətən müharibəsinin ön sıralarında vuruşub. Cəbrayıl rayonunun yaşayış məntəqələrinin düşməndən azad edilməsində böyük hünər və qəhrəmanlıq göstərib. Qəsbkarlardan azad etdikləri Nüzgar kəndinə üçrəngli Zəfər bayrağını da kapitan Həmid Cəfərli özü sancıb. Sonra komandanlıq onların bölüyünü Füzuli rayonu istiqamətində gedən döyüşlərə cəlb edib. Bölüyə Pirəhmədli kəndini erməni işğalçılarından azad etmək tapşırılıb. Təəssüflər olsun ki, 5 oktyabr 2020-ci ildə - Vətən müharibəsinin 8-ci günü kapitan Cəfərli Pirəhmədli kəndi ətrafında gedən əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Kapitan Həmid Cəfərli Vətən müharibəsində göstərdiyi cəsarət və igidliyə görə "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülüb.

Yaxınları şəhid kapitanı kövrək hisslərlə xatırladılar. Həmid Cəfərli haqqında kitab yazmış Hicran Hüseynova dedi ki, torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş oğullarımızın qəhrəmanlığını tarixləşdirmək və gələcək nəsillərə çatdırmaq ziyalıların mənəvi borcudur. Çalışmışam ki, kitabda Vətənə layiqli övlad olan kapitan Həmid Cəfərlinin həyat və döyüş yolunu bütün dolğunluğu ilə oxuculara çatdırım. Çatdırım ki, qoy gələcək nəsillər igidliyi, qəhrəmanlığı onun kimi cəsur oğullardan öyrənsinlər.

"Vətən müharibəsi qəhrəmanı" ordenli, polkovnik Nizami Mövlanov, Birinci Qarabağ müharibəsinin veteranı Elmar Hüseynov, zabit yoldaşları Murad Şirinov, Mahir İbrahimov, kursant yoldaşı Rüfət Cəfərli, Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin sədri Füzuli Rzaquliyev, şəhidin riyaziyyat müəllimi olmuş Şölə Qasımova və başqaları Həmid Cəfərli haqqında xatirələrini bizimlə bölüşdülər.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 13 fevral, № 32.- S.11.